**Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 15 noyabr 2011-ci il tarixli 1836 nömrəli Sərəncamının 2-ci bəndinin icrasını təmin etmək məqsədilə Vergilər Nazirliyi tərəfindən 2013-ci ildə həyata keçirilmiş tədbirlər barədə məlumat**

| № | Tədbirin adı | Görülmüş işlər | İcra müddəti |
|---|---|---|---|
| **1.** | Sahibkarlığın inkişafının sürətləndirilməsi məqsədi ilə təsərrüfat subyektlərinin qeydiyyatı sisteminin təkmilləşdirilməsi sahəsində müvafiq tədbirlərin həyata keçirilməsi | Sahibkarlığın inkişafının sürətləndirilməsi məqsədi ilə təsərrüfat subyektlərinin qeydiyyatı sisteminin təkmilləşdirilməsi sahəsində Vergilər Nazirliyi tərəfindən müvafiq tədbirlərin həyata keçirilməsi 2013-cü ildə davam etdirilmişdir. Fərdi sahibkarların e-qeydiyyat sistemi vasitəsilə 2013-cü il ərzində 27414 fiziki şəxsin vergi uçotuna alınması təmin edilmiş və 1 yanvar 2014-cü il tarixinə artıq 82500 fərdi sahibkar elekron qaydada qeydiyyata alınmışdır.<br>Eyni zamanda, 2012-ci ildən ölkədə tətbiq edilən kommersiya hüquqi şəxslərin e-qeydiyyat sistemi vasitəsilə artıq 4236 yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyət dövlət qeydiyyatına alınmışdır. E-qeydiyyatın tətbiqi yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlər üçün qeydiyyat əvvəlki prosedurlara olan tələbləri aradan qaldırmış, nəticədə ölkədə biznesə başlama prosedurlarının sayı 6-dan 3-ə, sərf edilən müddət 8 gündən 7 günə, vəsait 95 manatdan 34 manata enmişdir.<br>2013-cü il ərzində Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış 7471 hüquqi şəxsdən 3377-si və ya 45,2 faizi elektron qeydiyyatdan keçmiş, 2012-ci illə müqaisədə onların sayı 52,2 faiz artmışdır.<br>Sahibkarlıq fəaliyyəti subyektlərinin qeydiyyatının həmçinin "ASAN" xidmət mərkəzləri vasitəsilə aparılması təmin edilmişdir. Belə ki, "ASAN" xidmət mərkəzlərində 2013-cü il ərzində 3793 sahibkarlıq subyektləri | 2011-2015 |

| № | Tədbirin adı | Görülmüş işlər | İcra müddəti |
|---|---|---|---|
| | | dövlət qeydiyyatına alınmışdır.<br>“ASAN imza”nın tətbiqi ilə əlaqədar fiziki şəxslərin onlayn qeydiyyatı və yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin sürətli qaydada elektron qeydiyyatının bu imzadan istifadə etməklə aparılmasına imkan yaradılmışdır.<br>Qeydiyyat proseslərinin sadəliyini əks etdirən icmal məlumat və statistik rəqəmlər Vergilər Nazirliyinin internet səhifəsində yerləşdirilmişdir. Görülmüş tədbirlər biznes mühitinin əlverişliliyi üzrə qiymətləndirməni özündə əks etdirən "Doing Business 2014" reytinq hesabatında ölkənin mövqeyinin möhkəmlənməsinə səbəb olmuşdur. Belə ki, bu hesabatda Azərbaycan Respublikası əvvəlki hesabata nisbətən “Biznesə başlama” indikatoru üzrə 6 pillə irəliləyərək 189 ölkə arasında 16-cı yerdən 10-cu yerə yüksəlmişdir.<br>Beynəlxalq Maliyyə Korporasiyasının “Azərbaycanda kommersiya fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin təsisçilərin qərarı ilə könüllü ləğv edilməsi və bu sahədə beynəlxalq təcrübə”yə dair tövsiyələri nəzərə alınmaqla Vergilər Nazirliyi tərəfindən kommersiya hüquqi şəxslərin könüllü ləğv edilməsi prosedurlarının təkmilləşdirilməsi məqsədilə müvafiq normativ-hüquqi aktlarda (Mülki Məcəllədə, İnzibati Xətalar Məcəlləsində və Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında qanunda) dəyişikliklər edilməsi barədə layihələr hazırlanmış, Ədliyyə və Maliyyə nazirlikləri ilə razılaşdırıldıqdan sonra Nazirlər Kabinetinə təqdim edilmişdir.<br>Bu layihələr əsasında Mülki və İnzibati Xətalar Məcəlləsinə və Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında Qanununa dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanunlarının tətbiqi | |

| № | Tədbirin adı | Görülmüş işlər | İcra müddəti |
|---|---|---|---|
| | | ilə bağlı Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamları 27 dekabr 2013-cü il tarixdə imzalanmışdır.<br>Kommersiya hüquqi şəxslərin qeydiyyat müddətlərinin 3 gündən 2 günədək qısaldılması, elektron qeydiyyatın sürətli qeydiyyat zamanı dərhal, adi qeydiyyat zamanı isə 1 günədək aparılması barədə Vergilər Nazirliyinin təklifləri əsasında “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda müvafiq dəyişiklik aparılmışdır.<br>Hesabat dövründə vergi ödəyicilərinə internet üzərindən göstərilən elektron xidmətlərin çeşidi və həcmi daha da genişləndirilmişdir. Nazirlər Kabinetinin 191 nömrəli Qərarı ilə təsdiq edilmiş “Elektron xidmətlərin siyahısı”na daxil edilmiş “Hüquqi şəxsin uçot məlumatlarının onlayn dəyişdirilməsi”, “Fiziki şəxsin uçot məlumatlarının onlayn dəyişdirilməsi”, “Hüquqi şəxsin filialının, nümayəndəliyinin uçot məlumatlarının onlayn dəyişdirilməsi’, “Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) uçot məlumatlarının onlayn dəyişdirilməsi” və “Vergi ödəyicisinin təsərrüfat subyektini(obyektinin) onlayn qeydiyyatdan çıxarılması” kimi daha 5 elektron xidmətlər üzrə müvafiq proqram təminatları 2013-cü ildə hazırlanaraq istifadəyə verilmişdir. Eyni zamanda həmin xidmətlər üzrə hazırlanmış inzibati reqlamentlər Ədliyyə Nazirliyində 22 oktyabr 2013-cü il tarixdə Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmişdir.<br>Eyni zamanda fiziki şəxslərin vergi uçotunda olub-olmaması barədə müraciətlərinin elektron qəbul edilməsi və cavablandırılması, “Vergi ödəyicilərinin təsərrüfat subyektlərinin (obyektinin) onlayn qeydiyyatı”, “Vergi ödəyicisinin filialının, nümayəndəliyinin onlayn | |

| № | Tədbirin adı | Görülmüş işlər | İcra müddəti |
|---|---|---|---|
| | | qeydiyyatı” və “Vergi ödəyicisinin filialının, nümayəndəliyinin onlayn qeydiyyatdan çıxarılması” xidmətləri üzrə proqram təminatı hazırlanaraq test edilmişdir. | |
| **2.** | Ədalətli rəqabət mühitinin formalaşdırılması məqsədi ilə qanunsuz sahibkarlığın və vergi orqanında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olma hallarının qarşısının alınması istiqamətində tədbirlərin gücləndirilməsi | Ədalətli rəqabət mühitinin formalaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi məqsədilə qanunsuz sahibkarlığın və vergi orqanında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olma hallarının qarşısının alınması üzrə operativ nəzarət strukturları tərəfindən həyata keçirilən nəzarət tədbirlərinin daha da gücləndirilməsi və bu tədbirlərin səmərəliliyinin yüksəldilməsi barədə aidiyyəti vergi orqanlarına müvafiq tapşırıq verilmişdir.<br>Vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin aşkar edilməsi üzrə həyata keçirilmiş operativ vergi nəzarəti tədbirləri nəticəsində 3393 sahibkarlıq fəaliyyəti göstərən şəxsin vergi orqanlarında qeydiyyatdan keçmədiyi aşkar olunmuş, həmin şəxslər barəsində müvafiq akt tərtib edilərək, 127,1 min manat məbləğində maliyyə sanksiyası tətbiq edilmişdir.<br>“Fərqlənmə nişanı” almadan avtomobil nəqliyyatı ilə sərnişin və yükdaşıma fəaliyyəti ilə məşğul olan şəxslərin aşkar edilməsi üzrə həyata keçirilmiş operativ nəzarət tədbirləri nəticəsində 2038 şəxsin “Fərqlənmə nişanı”nı almadan avtomobil nəqliyyatı ilə sərnişin və yükdaşıma fəaliyyəti göstərməsi aşkar edilmiş, həmin şəxslər barəsində 79,1 min manat məbləğində maliyyə sanksiyası tətbiq edilmişdir.<br>Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) olmadan məşğul olan şəxslərin aşkar edilməsi üzrə həyata keçirilmiş operativ vergi nəzarəti tədbirləri nəticəsində 6734 obyektdə qanun pozuntuları aşkar edilmiş və tərtib olunmuş materiallar | 2011-2015 |

| № | Tədbirin adı | Görülmüş işlər | İcra müddəti |
|---|---|---|---|
| | | baxılması üçün aidiyyəti dövlət orqanlarına göndərilmişdir.<br>Vergilər Nazirliyinin aidiyyəti strukturunda icraatda olan material, müraciət, məlumat və cinayət işlərinin araşdırılması, habelə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı ədalətli rəqabət mühitinin formalaşdırılması məqsədi ilə qanunsuz sahibkarlığın və vergi orqanında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olma hallarının müəyyən edilməsi və qarşısının alınması istiqamətində qanunamüvafiq tədbirlərin görülməsinə daim təhqiqat, istintaq və əməliyyat işçilərinin diqqəti cəlb olunur.<br>Daxil olmuş məlumat və materiallar üzrə qanunsuz sahibkarlıq faktları ilə bağlı 2013-cü ildə cəmi 62 cinayət işi başlanmış, il ərzində onlardan 16 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün məhkəməyə göndərilmiş, 4 işin icraatına bəraətverici əsaslar olmadan xitam verilmişdir.<br>Bundan başqa, hesabat ilində qanunsuz olaraq idman mərc oyunlarının keçirilməsi ilə məşğul olma faktı üzrə CM-nin 192-1.2-ci maddəsi ilə 1 cinayət işi başlanmış və iş üzrə ibtidai istintaq tamamlanaraq baxılması üçün məhkəməyə göndərilmişdir.<br>2013-cü ili ərzində aparılmış araşdırmalar və həyata keçirilmiş əməliyyat tədbirləri zamanı bir sıra faktlar müəyyən edilmiş və nəticəsindən asılı olaraq qanunamüvafiq tədbirlərin görülməsi təmin edilmişdir. | |
| **3.** | Sahibkarlıqla məşğul olan şəxslərin məlumatlandırılması və vergi öhdəliklərinin yerinə yetirilməsinə əlverişli şəraitin yaradılması məqsədi ilə kompüter | 2013-cü ildə vergi ödəyicilərinə xidmət mərkəzləri tərəfindən göstərilən xidmətlərin sırasına Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi adından vergi ödəyicilərinə elektron imza üzrə sertifikat xidmətlərinin göstərilməsi əlavə edilmişdir.<br>Eyni zamanda "Vergi ödəyicilərinə xidmətlərin vahid | 2011-2015 |

| № | Tədbirin adı | Görülmüş işlər | İcra müddəti |
|---|---|---|---|
| | terminalları şəbəkəsinin genişləndirilməsi | standartları"nda xidmət mərkəzləri tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin spektri genişləndirilmiş və 50 növ əlavə xidmələrin göstərilməsinə başlanılmışdır.<br>Dəyişikliklərə əsasən xidmət mərkəzlərində vətəndaşlara vergi qanunvericiliyinin tətbiqi barədə izahatlar verilir, vergi ödəyicilərinə şəxsi vərəqələrindəki məlumatlara baxış imkanı yaradılır, vergi bəyannamələri, vergi qanunvericiliyi və onun tətbiqi barədə məlumat və izahatların verilməsi, sahibkarlıq fəaliyyəti subyektlərinin "bir pəncərə" prinsipi üzrə dövlət qeydiyyatına alınması ilə bağlı geniş spektrdə xidmətlər göstərilir.<br>Fiziki və hüquqi şəxslərin elektron qeydiyyatının aparılması, NKA-nın, təsərrüfat subyektinin qeydiyyata alınması və qeydiyyatdan çıxarılması, fəaliyyətin bərpası, dayandırılması, xitam verilməsi, uçot məlumatlarında dəyişiklik, bəyannamələrin, hesabat və arayışların göndərilməsi, bankda hesabın açılması, e-vergi hesab-fakturalarının göndərilməsi, məktub və ərizələrin göndərilməsi və s. məsələlər üzrə vətəndaşlara lazımi köməklik göstərilir. Mərkəzlərdə vergi ödəyicilərinə vergilərə aid ərizə və hesabat formalarının, buklet və başqa nəşrlərin verilməsi də təmin edilir.<br>Vergi ödəyicilərinə xidmət mərkəzlərinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə " Vergi ödəyicilərinə xidmət mərkəzində vergi ödəyicilərinin qəbulu və xidmətin təşkili Qaydaları" təsdiq edilmişdir.<br>Hesabat dövründə Bakı şəhərində Mirəli Qaşqay, 56 ünvanında yeni xidmət mərkəzi yaradılmış, xidmət mərkəzi müasir avadanlıqlar və sürətli kommunikasiya sistemi ilə təchiz edilmişdir. | |
| **4.** | Yeni iş yerlərinin yaradılması | Yeni iş yerlərinin yaradılması üçün regionlara investorların cəlb | 2011-2015 |

| № | Tədbirin adı | Görülmüş işlər | İcra müddəti |
|---|---|---|---|
| | üçün regionlara investorların cəlb edilməsi məqsədi ilə investisiya imkanlarının araşdırılması və xarici investorlara təqdim ediləcək konkret investisiya təkliflərinin hazırlanması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi. | edilməsi məqsədi ilə investisiya imkanlarının araşdırılması və xarici investorlara təqdim ediləcək konkret investisiya təkliflərinin hazırlanması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi ilə əlaqədar aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarından təkliflər daxil olduğu halda həmin təkliflərə müvafiq qaydada münasibət bildiriləcəkdir. | |
| **5.** | Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxsləri işlə təmin edən işəgötürənləri həvəsləndirmək məqsədi ilə təkliflərin hazırlanması. | Vergi Məcəlləsinin 106.2-ci maddəsi ilə əlillərin və ya sağlamlıq imkanları məhdud uşaqların ictimai təşkilatlarına məxsus olan işçilərinin ümumi sayının azı 50 faizi əlillərdən və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərdən ibarət olan istehsal müəssisələrinin mənfəət vergisinin dərəcəsi 50 faiz azaldılır.<br>Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxsləri işlə təmin edən işəgötürənləri həvəsləndirmək məqsədi ilə aidiyyəti mərkəzi icra hakimiyyəti orqanları tərəfindən təkliflər daxil olduğu halda həmin təkliflərə müvafiq qaydada münasibət bildiriləcəkdir. | 2011-2013 |